**Neftçala Rayon Statistika İdarəsi tərəfindən "Ümumdünya statistika günü" ilə əlaqədar tədbir keçirilmişdir.**

15 oktyabr 2025-ci il tarixində Neftçala Rayon Statistika İdarəsində "Ümumdünya statistika günü" ilə əlaqədar tədbir keçirilib.

Tədbir iştirakçıları ilk öncə Ümummilli Lider Heydər Əliyevin Neftçala rayonunda ucaldılmış abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyub.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısının müavini, idarə və müəsissə təşkilatlarının rəhbərləri və ərazi üzrə icra nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Neftçala Rayon Statistika İdarəsinin rəisi Şahin Mənəfov, Ümumdünya statistika günü münasibətilə əməkdaşları təbrik edib, bu əlamətdar günün qeyd olunmasında əsas məqsədin etibarlı məlumatların, şəffaflığın və analitik düşüncənin dövlət idarəçiliyində, iqtisadi və sosial inkişafda oynadığı həlledici rol olduğunu vurğulayıb.

Neftçala Rayon İcra Hakimiyyəti başçısının müavini Burcalı Ağayev çıxış edərək icra başçısı cənab Mirhəsən Seyidovun "Ümumdünya Statistika günü" münasibətilə təbriklərini tədbir iştirakçılarına çatdırıb. O, həmçinin statistik məlumatların toplanması, emalı və ictimaiyyətə təqdim edilməsinin elektron hökumət prinsipləri əsasında həyata keçirildiyini vurğulayıb.

Daha sonra çıxış edən Neftçala Rayon Statistika İdarəsinin əməkdaşları tədbir iştirakçılarına təbriklərini bildirmiş idarənin fəaliyyət istiqamətləri ilə bağlı məlumat veriblər.

Sonda statistika sahəsində 40 ildən artıq fəaliyyət göstərən veteran işçi Fikrət Əliyev statistikanın inkişafı haqqında öz təcrübələrini bölüşüb.







